# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 201 **QƏRAR** Bakı şəhəri, 20 iyun 2023-cü il

## "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydalarının və normalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 10 mart tarixli 117 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 785, № 11, maddə 1943) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş 1 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəis və sıravi heyətinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Qaydaları"nın 6-cı, 10-cu hissələrində və 12-ci hissənin birinci, ikinci cümlələrində "Təchizat İdarəsi" sözləri "Maddi-Texniki Təminat Baş İdarəsi" sözləri ilə əvəz edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş 3 nömrəli əlavə - "Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi Norması" yeni redaksiyada təsdiq edilsin *(əlavə olunur)*.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 20 iyun tarixli 201 nömrəli Qərarı ilə təsdiq edilmişdir

**3 nömrəli əlavə**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin böyük, orta, kiçik rəis və sıravi heyətlərinin geyim forması və fərqlənmə nişanları ilə təmin edilməsi NORMASI

| Sıra №-si | Əşyaların adı | Bir nəfər üçün əşyanın miqdarı (norması) | İstifadə müddəti | Qeyd |
|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 |
| | **1. Geyim forması** | | | |
| 1.1. | Parad-çıxış furajkası | 1 ədəd | 5 il | 1 |
| 1.2. | Gündəlik furajka | 1 ədəd | 1,5 il | 2 |
| 1.3. | Parad-çıxış pilotkası | 1 ədəd | 5 il | 3 |
| 1.4. | Gündəlik pilotka | 1 ədəd | 1,5 il | 3 |
| 1.5. | Yay səhra furajkası | 1 ədəd | 2 il | |
| 1.6. | Səhra furajkası | 1 ədəd | 2 il | |
| 1.7. | Qış səhra papağı | 1 ədəd | 2 il | |
| 1.8. | Qış papağı | 1 ədəd | 2 il | |
| 1.9. | Gündəlik palto | 1 ədəd | 5 il | |
| 1.10. | İsti qış gödəkçəsi | 1 ədəd | 2 il | |
| 1.11. | Qış səhra gödəkçəsi | 1 ədəd | 3 il | 4 |
| 1.12. | Plaş-palto | 1 ədəd | 4 il | 5 |
| 1.13. | Parad-çıxış geyim forması | 1 dəst | 5 il | 1 |
| 1.14. | Gündəlik geyim forması | 1 dəst | 1,5 il | 6 |
| 1.15. | Yay şalvarı | 1 ədəd | 1 il | |
| 1.16. | Gündəlik şalvar | 1 ədəd | 1 il | 7 |
| 1.17. | Yay yubkası | 1 ədəd | 1 il | |
| 1.18. | Gündəlik geyim forması (mont) | 1 dəst | 2 il | 2 |
| 1.19. | Səhra kostyumu | 1 dəst | 2 il | 8 |
| 1.20. | Plaş-örtük | 1 ədəd | 5 il | 9 |
| 1.21. | Pulover | 1 ədəd | 2 il | |
| 1.22. | Motosikletçi kostyumu | 2 dəst | 2 il | 10 |
| 1.23. | Motosikletçi dəbilqəsi | 1 ədəd | 5 il | 11 |
| 1.24. | Yay örtüyü | 1 ədəd | 2 il | 12 |
| 1.25. | İdman kostyumu | 1 dəst | 2 il | |
| 1.26. | Parad-çıxış forması üçün uzunqol köynək | 1 ədəd | 1 il | |
| 1.27. | Gündəlik geyim forması üçün uzunqol köynək | 2 ədəd | 2 il | 2 |
| 1.28. | Qısaqol köynək | 2 ədəd | 2 il | 2 |
| 1.29. | Parad-çıxış qalstuku | 1 ədəd | 1 il | |
| 1.30. | Gündəlik qalstuk | 2 ədəd | 1 il | 13 |
| 1.31. | Parad-çıxış şərfi | 1 ədəd | 2 il | |
| 1.32. | Gündəlik şərf | 1 ədəd | 2 il | |
| 1.33. | Parad-çıxış əlcəyi | 1 cüt | 2 il | |
| 1.34. | Gündəlik əlcək | 1 cüt | 2 il | |
| | **2. Alt paltarı** | | | |
| 2.1. | Mayka | 2 ədəd | 1 il | |
| 2.2. | Səhra geyim maykası | 2 ədəd | 2 il | 14 |
| 2.3. | Tuman | 2 ədəd | 1 il | |
| 2.4. | Corab | 2 cüt | 1 il | 15 |
| 2.5. | İsti alt tumanı və köynəyi | 1 dəst | 2 il | |
| | **3. Ayaqqabı** | | | |
| 3.1. | Gündəlik ayaqqabı | 1 cüt | 1 il | 16 |
| 3.2. | Qış çəkməsi | 1 cüt | 2 il | 17 |
| 3.3. | Səhra çəkməsi | 1 cüt | 2 il | 18 |
| 3.4. | Uzunboğaz çəkmə | 1 cüt | 2 il | 3 |
| 3.5. | İdman ayaqqabısı | 1 cüt | 2 il | |
| 3.6. | Şap-şap | 1 cüt | 2 il | 19 |
| | **4. Ləvazimat** | | | |
| 4.1. | Parad-çıxış kəməri | 1 ədəd | 15 il | 20 |
| 4.2. | Akselbant | 1 ədəd | 15 il | 20 |
| 4.3. | Şalvar üçün qayış | 1 ədəd | 3 il | 21 |
| 4.4. | Xüsusi kəmər | 1 dəst | 4 il | 21 |
| 4.5. | Fıştırıq | 1 ədəd | 5 il | |
| | **5. Atribut** | | | |
| 5.1. | Fərqlənmə nişanı | | | 22 |

**Qeydlər:**

1. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyasının kursantlarına 4 (dörd) il müddətinə verilir.
2. Bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
3. Qadınlara verilir.
4. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə qış səhra gödəkçəsi 1 ədəd 2 (iki) il müddətinə verilir.
5. Böyük və orta rəis heyətinə verilir.
6. Qadınlara yubka ilə, bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
7. Qadınlara və bayır xidmətinin əməkdaşlarına verilir.
8. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə səhra kostyumu 1 dəst 1 (bir) il müddətinə verilir.
9. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Çevik Polis Alayı, post-patrul, yol-patrul və ictimai təhlükəsizlik xidmətlərinin əməkdaşlarına verilir.
10. Motosiklet təhkim olunmuş əməkdaşlara 1 dəst yay, 1 dəst qış kostyumu verilir.
11. Motosiklet təhkim olunmuş əməkdaşlara verilir.
12. Post-patrul və yol-patrul xidmətlərinin əməkdaşlarına verilir.
13. Bayır xidmətinin əməkdaşlarına verilmir.
14. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara 1 (bir) il müddətinə verilir.
15. Qadınlara kapron corab, mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara əlavə 2 cüt isti corab verilir.
16. Bayır xidmətinin əməkdaşlarına 2 cüt verilir.
17. Əməliyyat şəraiti çətin olan dağ rayonlarının bayır xidmətinin əməkdaşlarına 1 (bir) il müddətinə verilir.
18. Mütəmadi təlimlərə cəlb olunan əməkdaşlara 2 cüt verilir.
19. Kursant və dinləyicilərə verilir.
20. Kursant və fəxri qarovula mərasimlərdə müvəqqəti istifadə üçün verilir.
21. Bayır xidmətinin əməkdaşlarına 2 (iki) il müddətinə verilir.
22. Fərqlənmə nişanları hər geyim formasına uyğun onun istifadə müddətinə verilir.